# Azərbaycanın iqtisadiyyatı daim güclənir, siyasi nüfuzu artır və beynəlxalq mövqeləri daha da möhkəmlənir

**Azərbaycanda uğurla həyata keçirilmiş müxtəlif beynəlxalq səviyyəli layihələr geniş regional əməkdaşlıq üçün möhkəm əsas yaradıb. Bu gün Azərbaycandan ixrac olunan karbohidrogen ehtiyatları Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. İqtisadiyyatın digər sahələrinə aid layihələrin reallaşması da əməkdaş ölkələrin sayını durmadan artırmaqdadır. Bu da iqtisadiyyatın şaxələndirilməsinə, ixrac potensialının davamlı surətdə artmasına güclü stimul verir. Bu, daim güclənən beynəlxalq əməkdaşlıq, həm də bölgədə sülhün, sabitliyin qorunmasının təminatçısıdır.**

Bu gün ölkənin bütün regionlarında böyük quruculuq və abadlıq işləri görülür və hər il yeni uğurlarla və artımla yekunlaşdırılır. Azərbaycan hazırda Avrasiya məkanında sosial-iqtisadi inteqrasiyanın daim güclənməsinə, bu zəmində sabitliyə davamlı surətdə öz töhfəsini verməkdədir. Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqində davam edən dinamik inkişaf barədə vurğulamışdır: "Azərbaycan uğurla inkişaf edir. İnkişaf dinamik xarakter daşıyır və deyə bilərəm ki, altı ay ərzində əldə etdiyimiz uğurlar tarixi uğurlardır. Yaxın Şərqdə vəziyyət həddindən artıq çox gərginləşib. Qanlı toqquşmalar dayanmır, qan tökülür və yeni müharibə ocaqları yaranır. Avropa dərin böhran içindədir və bu böhrandan hələ ki, çıxış yollarını tapa bilməyib. Eyni zamanda, biz mənəvi böhranın təzahürlərini də görürük və bu, bizi çox narahat edir. Azərbaycan artıq uzun illərdir çalışır ki, bölgədə multikulturalizm dəyərləri üstünlük təşkil etsin. Bölgədə sülh, əmin-amanlıq, mehriban qonşuluq meyilləri güclənsin və bildiyiniz kimi, Azərbaycan tərəfindən bu istiqamətdə həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə çox önəmli addımlar atılır".

Bu düşünülmüş siyasət nəticəsində Azərbaycan sülh, əmin-amanlıq adasıdır. Buna görə də ölkəmizin beynəlxalq nüfuzu gündən-günə artır. İkitərəfli və çoxtərəfli formatlarda əməkdaşlıqda Azərbaycan dünya birliyinin etibarlı, dəyərli üzvü olduğunu təcrübədə sübut edib. Əlaqələrdə şəffaflıq, etibar, qarşılıqlı maraqların təmininə görə Azərbaycana böyük hörmət müşahidə olunur. Azərbaycanda gedən multikulturalizm sahəsindəki pozitiv proses, davamlı sosial-iqtisadi inkişaf, səmərəli beynəlxalq əməkdaşlıq dünya birliyi tərəfindən izlənilir və böyük təqdirlə qarşılanır. Dövlətin xarici siyasəti bütün istiqamətlərdə çox fəaldır, çevikdir. Xarici əlaqələrdə milli maraqlar bu siyasətdə ən prioritet məsələdir. Təbii ki, bu alternativi olmayan siyasət sayəsində Azərbaycan son illər ərzində bütün bölgədə yaşanan böhranlardan itkisiz çıxıbdır və bu kursu davam etdirməkdə qərarlıdır.

Beləliklə, Azərbaycanla müxtəlif sahələrdə əməkdaşlıq etmək istəyən ölkələrin sayı durmadan artır. Dövlət həm ikitərəfli müstəvidə, həm regional formatda, həm çoxtərəfli formatda uğurlu xarici siyasət aparır. Beynəlxalq təşkilatlarla kifayət qədər sanballı, səmərəli, artıq oturuşmuş əlaqələr qurulubdur, qarşılıqlı hörmət, inam, maraqlar üzərində qurulmuş münasibətlərdə etimad, etibar, şəffaflıq kimi xarakterik xüsusiyyətlər hakimdir. Siyasi xətdəki bu pozitiv amillər, təbii ki, bütün tərəflərin marağını təmin edir. Uğurlu beynəlxalq iqtisadi əməkdaşlıq, ölkənin dünya bazarına müvəffəqiyyətlə çıxması ölkənin bölgədə siyasi mövqeyini də kifayət qədər möhkəmlətmişdir.

Azərbaycanın qlobal iqtisadi



və maliyyə böhranı şəraitində kredit reytinqinin artmasının özü iqtisadi siyasətin doğru olduğunu bir daha təsdiq edir. Hazırda Azərbaycanın dünyada ən islahatçı və iqtisadi baxımdan inkişaf edən ölkə olması nüfuzlu beynəlxalq qurumlar tərəfindən təsdiqlənir.

**(davamı 6-cı səhifədə)**

# Azərbaycanın iqtisadiyyatı daim güclənir, siyasi nüfuzu artır və beynəlxalq mövqeləri daha da möhkəmlənir

**(əvvəli 1-ci səhifədə)**

Bu prosesdə diqqətçəkən məqam beynəlxalq əməkdaşlıqda öz siyasi və iqtisadi müstəqilliyini qorumaq və milli maraqları təmin etməkdir. Azərbaycan özünəməxsus alternativsiz yolla gedir. Bu xarakterli əlaqələr, təbii ki, iqtisadi və siyasi marağına zərbə dəyməyən, əksinə, ödəyən qarşı tərəfi də cəlb edir. Çünki Azərbaycanın dünyada ən islahatçı və iqtisadi baxımdan inkişaf edən ölkə olması, qarşılıqlı maraqlara əsaslanan əlaqələri səmərəli iqtisadi və siyasi əməkdaşlıq qurmaq istəyən hər bir dövlətin və benəlxalq birliyin də istəyincədir, ona görə ki, bu əlaqələrin arxasında onların mənafeyini təmin edə bilən, iqtisadi inkişafına, siyasi stabilliyinə dəstək dayanır.

Azərbaycan rəhbərliyi qüdrətli iqtisadiyyata nail olmaq üçün operativ surətdə ölkənin enerji, ərzaq və nəqliyyat təhlükəsizliyini təmin etmişdir. Paralel şəkildə iqtisadiyyatın şaxəliliyi istiqamətində müvafiq Dövlət proqramları və layihələr reallaşdırılmışdır və bu tədbirlər davamlı surətdə həyata keçirilir. Əldə edilən inkişaf səviyyəsi sübut etdi ki, Azərbaycanın düşünülmüş siyasətlə, konkret iqtisadi proqramlarla fəaliyyətinin alternativi yoxdur. Nəticədə Azərbaycan regionda innovativ davamlı inkişaf edən qüdrətli dövlətə çevrilmiş, bu gün beynəlxalq investisiyaların yönəldilməsi üçün də ən cəlbedici ölkədir. Beynəlxalq əməkdaşlıqda yaradılan işlək mexanizmə malik hüquqi baza əlaqələrin genişlənməsində həlledici əhəmiyyətə malikdir. Azərbaycanda bu baza mövcuddur, müvafiq qanunlar fəaliyyətdədir və daim təkmilləşdirilir. Nəticədə Azərbaycan iqtisadiyyatına intensiv investisiya qoyuluşu davam etməkdədir.

Ölkə rəhbərliyi tərəfindən bu tədbirlərin operativ surətdə həyata keçirilməsi nəticəsində Azərbaycanın qanunvericilik bazası ölkədə investisiya qoyuluşu üçün münbit siyasi və hüquqi şərait yaradıb. 2014-cü ildə ölkə iqtisadiyyatına 27 milyard ABŞ dolları həcmində investisiya qoyulmuşdur, bunun da əsas hissəsi yerli sərmayədir.

Hazırda Azərbaycan iqtisadiyyatında çoxşaxəliliyə nail olmuş, regionun qüdrətli siyasi nüfuzlu, dövlətidir. Müasir geniş islahatlar, innovativ davamlı inkişaf, uğurla reallaşan strateji xətt ölkənin siyasi və iqtisadi müstəqilliyinin möhkəmlənməsinin səbəblərindəndir.

Dövlətin qarşılıqlı səmərəli iqtisadi-siyasi əlaqələrin daim genişlənməsi, dünya iqtisadiyyatına inteqrasiyada öz milli mənafeyini qorumaqla geosiyasi məkanın üstünlüklərindən bacarıqla istifadə etmək bu gün Azərbaycana Avrasiya məkanında çox böyük siyasi nüfuz qazandırıb. Ölkənin bütün regionlarında iqtisadi potensial elmi-praktiki əsaslarla müvafiq Dövlət proqramlarına əsasən dünya standartlarına uyğun olaraq dövriyyəyə cəlb edilir. Beynəlxalq səviyyəli nəqliyyat infrastrukturu isə bütün regionların dünya bazarları ilə əlaqəsini təmin edir. Beləliklə, beynəlxalq standartlarla hazırlanmış sənaye və emal məhsullarının dünya bazarlarına birbaşa çıxışı da operativ təmin edilir.

Bazar iqtisadiyyatının əsasını təşkil edən özəl sektorun davamlı inkişafı üçün dövlət sahibkarlara bütün hüquqi və maddi dəstəyi verməkdədir. Ölkə başçısı bu sahədəki prosesi ciddi nəzarətdə saxlayır. Dövlət rəhbərliyinin diqqəti sayəsində 2014-cü ildə ölkədə sahibkarlıq subyektlərinin sayı 614 mini keçib.Təsadüfi deyil ki, ÜDM-də özəl sektorun payı 81,9 faizə qədərdir.

Dövlət rəhbərliyi bölgələrin özünü təmin edə biləcək səviyyədə, yəni dominant iqtisadi və sosial tərəqqi etməsinə çalışır. Buna görə də bölgələrin sosial-iqtisadi inkişafına diqqət daim artırılır və dünya bazarlarına birbaşa bağlantıların yaradılması üçün bütün zəruri addımlar atılır.

*Qazanılan nəticələr sübut edir ki, Azərbaycanın yürütdüyü siyasət və seçdiyi strateji kursun alternativi yoxdur. Beləliklə, hazırda ölkə regionda ən qüdrətli dövlət kimi möhkəmlənməkdə davam edir. 2015-ci ildən Azərbaycan inkişafın yeni bir mərhələsinə qədəm qoyub. Bu, iqtisadiyyatın şaxələndirilməsi və sənayeləşmənin yüksək pilləsi dövrüdür. Qəbul edilmiş sosial-iqtisadi proqramlar düşünülmüş siyasətlə proqnozlaşdırılaraq, ölçülübbiçilərək, elmi-təcrübi reallığa əsaslanaraq hazırlandığı üçün ölkənin bütün sahələrində inkişaf davamlıdır. Dövlət başçısı davamlı irəliləyişin səbəbi barədə demişdir: "Azərbaycanda iqtisadiyyat inkişaf edir . Bax indi gətirəcəyim rəqəmlər bunu göstərəcək və sübut edəcək ki, bu doğrudan da, tarixi nailiyyətdir. Beləliklə, 6 ayda iqtisadiyyat 5,7 faiz artmışdır. Bu, çox gözəl göstəricidir, ölkəmizin dinamik inkişafını sübut edir. Bundan da gözəl göstərici qeyri-neft sektorunun inkişafıdır. Burada da biz 9,2 faiz artım görürük. Yəni bundan yuxarı nəticə ola bilməz. Sənaye istehsalı təxminən 4 faiz artmışdır. Qeyri-neft sənayesi 14 faizdən çox artmışdır. Bu da son illərdə sənayeləşmə, yeni sənaye zonalarının yaradılması ilə bağlı görülmüş işlərin, tədbirlərin nəticəsidir. Azərbaycanda inflyasiya aşağı səviyyədədir -3,5 faiz. Əhalinin pul gəlirləri ənənəvi olaraq inflyasiyanı üstələyir və 6,2 faiz artmışdır. Kənd təsərrüfatı 7 faizdən çox artmışdır, daha doğrusu, 7,3 faiz. Bu da son illər ərzində ən yüksək artım tempidir. Bu da görülən işlərin nəticəsində mümkün olmuşdur. Ölkəmizə 6 ayda 12,7 milyard manat sərmayə qoyulmuşdur. Bu da çox böyük rəqəmdir və bu birinci 6 ayda xarici investisiyalar üstünlük təşkil edir. Son illərdə biz görürdük ki, daxili investisiyalar üstünlük təşkil edir. Bu ilin 6 ayında isə xarici sərmayə üstünlük təşkil edir. Bu da müsbət haldır, çünki yenə də göstərir ki, Azərbaycan investisiyalar üçün çox cəlbedici ölkədir və xarici sərmayə burada lazımi səviyyədə qorunur".*

*Beləliklə, son illər ərzində aparılan düşünülmüş siyasət nəticəsində bu yüksək nailiyyətlərə imza atmaq mümkün olmuşdur. Uzun illər iqtisadiyyata qoyulan vəsait, şaxələndirmə siyasəti, nəticədə qeyri-neft sektorunun innovativ inkişafı imkan verdi ki, iqtisadiyyatın dayanıqlılığı təmin olunsun, bir sektordan – neft-qaz sektorundan asılı olmasın. Hətta dünyada neftin qiymətinin kəskin şəkildə düşməsi belə ümumi iqtisadi inkişafımıza təsir etmədi. Azərbaycanın iqtisadi modelinin unikallığı, yürüdülən siyasətin düzgünlüyü özünü nailiyyətlərdə aydın göstərir.*

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**